## Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti

Bizim məqsədimiz bütövlükdə maliyyə hesabatlarında fırıldaqçılıq və ya səhv nəticəsində əhəmiyyətli təhriflərin olub-olmadığına dair kifayət qədər əminlik əldə etmək və rəyimizin daxil olduğu auditor hesabatını təqdim etməkdir. Kifayət qədər əminlik əminliyin yüksək səviyyəsidir, lakin Beynəlxalq Audit Standartlarına uyğun olaraq auditin aparılması zamanı mövcud olan bütün əhəmiyyətli təhriflərin həmişə aşkar olunacağına zəmanət vermir. Təhriflər fırıldaqçılıq və ya səhv nəticəsində yarana bilər və fərdi və ya məcmu olaraq istifadəçilərin maliyyə hesabatları əsasında qəbul edəcəyi iqtisadi qərarlara təsir göstərmək ehtimalı olduğu halda əhəmiyyətli hesab edilir.

Beynəlxalq Audit Standartlarına uyğun aparılan auditin bir hissəsi olaraq, biz audit zamanı peşəkar mühakimə tətbiq edirik və peşəkar skeptisizm nümayiş etdiririk. Biz həmçinin:

- Maliyyə hesabatlarında fırıldaqçılıq və ya səhv nəticəsində əhəmiyyətli təhriflərin olması riskini müəyyən edir və qiymətləndirir, həmin risklərə qarşı audit prosedurlarını hazırlayır və həyata keçirir və rəyimizi əsaslandırmaq üçün yetərli və münasib audit sübutlarını əldə edirik. Fırıldaqçılıq nəticəsində yaranmış əhəmiyyətli təhriflərin aşkar edilməməsi riski səhvlər nəticəsində yaranmış əhəmiyyətli təhriflərin aşkar edilməməsi riskindən daha yüksəkdir, çünki fırıldaqçılığa gizli sövdələşmə, saxtakarlıq, məlumatların bilərəkdən göstərilməməsi, yanlış təqdimat və ya daxili nəzarət sistemində sui-istifadə halları daxil ola bilər.
- Şirkətin daxili nəzarət sisteminin effektivliyinə dair rəy bildirmək üçün deyil, şəraitə uyğun audit prosedurlarını işləyib hazırlamaq üçün daxili nəzarət sistemi üzrə məlumat əldə edirik.
- Rəhbərlik tərəfindən istifadə edilən uçot siyasətlərinin uyğunluğunu, habelə uçot təxminləri və müvafiq açıqlamaların münasibliyini qiymətləndiririk.
- Fəaliyyətin fasiləsizliyi prinsipinin rəhbərlik tərəfindən istifadə edilməsinin uyğunluğuna və əldə edilən audit sübutları əsasında Şirkətin fasiləsiz fəaliyyət göstərmək imkanını ciddi şübhə altına qoya bilən hadisə və şəraitlə bağlı əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olub-olmadığına dair qənaətə gəlirik. Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğu qənaətinə gəldikdə, auditor rəyimizdə maliyyə hesabatlarındakı müvafiq məlumatların açıqlanmasına diqqət yetirməli və ya belə məlumatların açıqlanması yetərli olmadıqda, rəyimizdə dəyişiklik etməliyik. Nəticələrimiz auditor hesabatımızın tarixinədək əldə edilən audit sübutlarına əsaslanmalıdır. Lakin sonrakı hadisələr və şəraitlər Şirkətin fasiləsiz fəaliyyətinin dayandırılmasına səbəb ola bilər.
- Məlumatların açıqlanması da daxil olmaqla, maliyyə hesabatlarının ümumi təqdimatını, strukturunu və məzmununu, habelə əsas əməliyyatların və hadisələrin maliyyə hesabatlarında düzgün təqdim edilib-edilmədiyini qiymətləndiririk.

Biz korporativ idarəetmə üzrə cavabdeh olan səlahiyyətli şəxslərə digər məsələlərlə yanaşı, planlaşdırılan audit prosedurlarının həcmi və müddəti, habelə əhəmiyyətli audit nəticələri, o cümlədən audit zamanı daxili nəzarət sistemində aşkar etdiyimiz əhəmiyyətli çatışmazlıqlar barədə məlumat veririk.

PricewaterhouseCoopers Audit Azerbaijan LLC

Bakı, Azərbaycan Respublikası

5 sentyabr 2022-ci il

| *Azərbaycan manatı ilə* | Qeyd | 31 dekabr 2021 | 31 dekabr 2020 (Düzəliş edilmiş) | 1 yanvar 2020 (Düzəliş edilmiş) |
|---|---|---|---|---|
| **AKTİVLƏR** | | | | |
| **Uzunmüddətli aktivlər** | | | | |
| Tikili və avadanlıqlar | 8 | 69,877,801 | 70,935,252 | 71,410,133 |
| Verilmiş avanslar | 11 | 17,726,592 | - | - |
| Qeyri-maddi aktivlər | | 79,661 | 134,534 | 151,554 |
| Təxirə salınmış mənfəət vergisi aktivləri | 18 | 784,259 | 1,058,358 | 30,475 |
| **Cəmi uzunmüddətli aktivlər** | | **88,468,313** | **72,128,144** | **71,592,162** |
| **Qısamüddətli aktivlər** | | | | |
| Mal-material ehtiyatları | 9 | 692,539 | 549,524 | 351,571 |
| Ticarət və digər debitor borclar | 10 | 9,924,578 | 7,529,331 | 6,335,278 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 12 | 7,577,765 | 923,965 | 713,993 |
| Sair qısamüddətli aktivlər | | 94,235 | 1,192,092 | 1,654,263 |
| Cari mənfəət vergisi üzrə avans ödənişləri | | - | 146,532 | - |
| Verilmiş avanslar | 11 | 758,378 | 1,145,759 | 904,814 |
| **Cəmi qısamüddətli aktivlər** | | **19,047,495** | **11,487,203** | **9,959,919** |
| **CƏMİ AKTİVLƏR** | | **107,515,808** | **83,615,347** | **81,552,081** |
| **KAPİTAL** | | | | |
| Nizamnamə kapitalı | 13 | 15,990 | 15,990 | 15,990 |
| Əlavə kapital qoyuluşu | 13 | 86,000,620 | 71,000,620 | 71,000,620 |
| Bölüşdürülməmiş mənfəət | | 5,490,844 | 2,584,327 | 5,341,138 |
| **CƏMİ KAPİTAL** | | **91,507,454** | **73,600,937** | **76,357,748** |
| **ÖHDƏLİKLƏR** | | | | |
| **Uzunmüddətli öhdəliklər** | | | | |
| Borc öhdəlikləri | 14 | 6,100,000 | - | - |
| **Cəmi uzunmüddətli öhdəliklər** | | **6,100,000** | **-** | **-** |
| **Qısamüddətli öhdəliklər** | | | | |
| Ticarət və digər kreditor borclar | 15 | 7,697,908 | 7,961,850 | 2,224,808 |
| Borc öhdəlikləri | 14 | - | - | 482,946 |
| Alınmış avanslar | | 431,990 | 839,240 | 1,301,254 |
| Cari mənfəət vergisi öhdəliyi | 18 | 710,012 | - | - |
| Digər vergi öhdəlikləri | | 1,068,444 | 1,213,320 | 1,185,325 |
| **Cəmi qısamüddətli öhdəliklər** | | **9,908,354** | **10,014,410** | **5,194,333** |
| **CƏMİ ÖHDƏLİKLƏR** | | **16,008,354** | **10,014,410** | **5,194,333** |
| **CƏMİ ÖHDƏLİKLƏR VƏ KAPİTAL** | | **107,515,808** | **83,615,347** | **81,552,081** |

02 sentyabr 2022-ci il tarixində Rəhbərlik adından təsdiqlənmiş və imzalanmışdır.

AZƏRBAYCAN RESPUBLİKASI AZERBAIJAN REPUBLIC BAKU INTERNATIONAL SEA TRADE PORT BAKI BEYNƏLXALQ DƏNİZ TİCARƏT LİMANI

Taleh Ziyadov
Baş direktor

Rafiq Rəfiyev
Maliyyə direktoru

| *Azərbaycan manatı ilə* | Qeyd | 2021 | 2020 (Düzəliş edilmiş) |
|---|---|---|---|
| Gəlirlər | 16 | 42,195,821 | 31,487,043 |
| Agentlik haqları | | 919,502 | 640,581 |
| Əmək haqqı və işçilərlə bağlı digər xərclər | | (13,731,268) | (13,313,909) |
| Yükləmə-boşaltma fəaliyyəti ilə bağlı xərclər | 17 | (9,543,648) | (6,286,969) |
| Köhnəlmə və amortizasiya xərcləri | 8 | (3,399,942) | (3,342,720) |
| Saxlanma və təmir xərcləri | | (3,338,568) | (3,453,282) |
| Maliyyə aktivləri üzrə gözlənilən kredit zərərləri üçün xalis xərc | 10 | (1,605,685) | (761,232) |
| Sosial xərclər | | (982,368) | (1,112,968) |
| Məzənnə fərqi üzrə zərər | | (899,274) | (22,819) |
| Mənfəət vergisindən başqa digər vergilər | | (806,839) | (932,041) |
| Kommunal xərclər | | (757,992) | (814,507) |
| Peşəkar xidmət haqları və məsləhət xidmətləri | | (716,372) | (218,438) |
| İT və kommunikasiya xərcləri | | (673,758) | (751,812) |
| Sığorta xərcləri | | (562,135) | (946,484) |
| Tədbirlərlə bağlı xərclər | | (446,115) | (384,049) |
| Sanitariya və ekoloji xərclər | | (380,169) | (455,742) |
| Digər əməliyyat xərcləri | | (243,461) | (1,971,610) |
| Ezamiyyə xərcləri | | (202,078) | (109,250) |
| Ofis təchizatı xərcləri | | (197,668) | (247,963) |
| Bank komissiyaları | | (168,534) | (105,175) |
| Reklam xərcləri | | (117,330) | (110,217) |
| Tədqiqat və inkişaf xərcləri | | (34,170) | (102,000) |
| Digər xərclər | | (52,321) | (200,440) |
| **Vergidən əvvəlki mənfəət/(zərər)** | | **4,255,628** | **(3,516,003)** |
| Mənfəət vergisi (xərci)/gəliri | 18 | (1,349,111) | 759,192 |
| **İL ÜZRƏ MƏNFƏƏT/(ZƏRƏR)** | | **2,906,517** | **(2,756,811)** |
| **İL ÜZRƏ CƏMİ MƏCMU GƏLİR/(ZƏRƏR)** | | **2,906,517** | **(2,756,811)** |

| *Azərbaycan manatı ilə* | Qeyd | Nizamnamə kapitalı | Əlavə kapital qoyuluşu | Bölüşdürülməmiş mənfəət | Cəmi |
|---|---|---|---|---|---|
| **31 dekabr 2019-cu il tarixinə düzəlişdən əvvəlki qalıq** | | **15,990** | **71,000,620** | **14,985,840** | **86,002,450** |
| Səhvlərin düzəldilməsi (vergilər xaric) | | | | (9,644,702) | (9,644,702) |
| **1 yanvar 2020-ci il tarixinə düzəlişdən sonrakı qalıq** | | **15,990** | **71,000,620** | **5,341,138** | **76,357,748** |
| İl üzrə zərər (düzəliş edilmiş) | | - | - | (2,756,811) | (2,756,811) |
| 2020-ci il üzrə cəmi məcmu zərər (düzəliş edilmiş) | | - | - | (2,756,811) | (2,756,811) |
| **1 yanvar 2021-ci il tarixinə düzəlişdən sonrakı qalıq** | | **15,990** | **71,000,620** | **2,584,327** | **73,600,937** |
| İl üzrə mənfəət | | - | - | 2,906,517 | 2,906,517 |
| Səhmdar tərəfindən kapital qoyuluşu | 13 | - | 15,000,000 | - | 15,000,000 |
| **31 dekabr 2021-ci il tarixinə qalıq** | | **15,990** | **86,000,620** | **5,490,844** | **91,507,454** |

| *Azərbaycan manatı ilə* | Qeyd | 2021 | 2020 (Düzəliş edilmiş) |
|---|---|---|---|
| **Əməliyyat fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti** | | | |
| Mənfəət vergisindən əvvəlki mənfəət/(zərər) | | 4,255,628 | (3,516,003) |
| Düzəlişlər: | | | |
| Tikili və avadanlıqların amortizasiyası | 8 | 3,387,132 | 3,325,701 |
| Qeyri-maddi aktivlərin amortizasiyası | | 12,902 | 17,020 |
| Maliyyə aktivləri üzrə xalis dəyərsizləşmə zərəri | 10 | 1,605,685 | 761,232 |
| Tikili və avadanlıqların silinməsi üzrə gəlir çıxılmaqla zərər | | 79,304 | - |
| Məzənnə fərqləri | | (583,003) | 22,819 |
| **Dövriyyə kapitalında dəyişikliklərdən əvvəl əməliyyat fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti** | | | |
| Ticarət və digər debitor borclarda artım | | (4,000,932) | (1,955,285) |
| Mal-material ehtiyatlarında artım | | (143,015) | (197,953) |
| Sair qısamüddətli aktivlərdə azalma | | 1,097,857 | 462,171 |
| Verilmiş avanslarda azalma/(artım) | | 387,381 | (240,945) |
| Ticarət və digər kreditor borclarda artım | | 477,862 | 5,737,042 |
| Vergi öhdəliklərində (azalma)/artım | | (144,876) | 27,995 |
| Alınmış avanslarda azalma | | (407,250) | (462,014) |
| **Dövriyyə kapitalında dəyişikliklər** | | **6,024,675** | **3,981,780** |
| Ödənilmiş mənfəət vergisi | | (218,468) | (415,223) |
| **Əməliyyat fəaliyyəti üzrə daxil olan xalis pul vəsaitləri** | | **5,806,207** | **3,566,557** |
| **İnvestisiya fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti** | | | |
| Tikili və avadanlıqların alınması | 8 | (618,720) | (425,571) |
| Başa çatdırılmamış tikililər üzrə daxilolmalar | | (19,469,886) | (2,425,249) |
| Qeyri-maddi aktivlərin alınması | | (5,000) | - |
| **İnvestisiya fəaliyyəti üzrə istifadə edilən xalis pul vəsaitləri** | | **(20,093,606)** | **(2,850,820)** |
| **Maliyyələşdirmə fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti** | | | |
| Borc öhdəlikləri üzrə daxilolmalar | 14 | 6,100,000 | - |
| Borc öhdəliklərinin ödənilməsi | | - | (482,946) |
| Səhmdar tərəfindən kapital qoyuluşu | 13 | 15,000,000 | - |
| **Maliyyələşdirmə fəaliyyəti üzrə istifadə edilən xalis pul vəsaitləri** | | **21,100,000** | **(482,946)** |
| Məzənnə dəyişikliklərinin pul vəsaitləri və onların ekvivalentlərinə təsiri | | (158,801) | (22,819) |
| **İlin əvvəlinə pul vəsaitləri və onların ekvivalentləri** | 12 | **923,965** | **713,993** |
| **İlin sonuna pul vəsaitləri və onların ekvivalentləri** | 12 | **7,577,765** | **923,965** |